AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

Aprel 2025

# M ü n d ə r i c a t


FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı ....2
Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal ....3
Rusiya buğdasının ixrac qiyməti ....6
Arpanın dünya bazarı qiymətinə dair qısa icmal ....7
Düyünün dünya bazarı qiymətinə dair qısa icmal ....8
Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal ....9
Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal ....10
Pambığın dünya bazarı qiymətinə dair qısa icmal ....11
Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal ....12
Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal ....13
Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal ....14
Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal ....15
Çayın dünya bazarı qiymətinə dair qısa icmal ....16
Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal ....17
Soyanın dünya bazarı qiymətinə dair qısa icmal ....18
Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal ....19
Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ....20
Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ....21
Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal ....22
Südün dünya bazarı qiymətinə dair qısa icmal ....23
Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal ....25

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

**(FAO-nun 2 may 2025-ci il tarixli açıqlaması)**

***FAO-nun Ərzaq Qiymətləri İndeksi 2025-ci ilin aprel ayında əvvəlki aya nisbətən artıb.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2025-ci ilin aprel ayında orta hesabla 128.3 bənd təşkil edib ki, bu da mart ayı ilə müqayisədə 0.96% (1.2 bənd), ötən ilin aprel ayı ilə müqayisədə isə 7.6% (9.0 bənd) **çoxdur.**
- **Ət Məhsullarının Qiymət İndeksi** aprel ayında orta hesabla 121.6 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 3.2% (3.7 bənd), ötən ilin aprel ayı ilə müqayisədə isə 4.3% (5.0 bənd) **çoxdur.**
- **Süd Məhsullarının Qiymət İndeksi** aprel ayında orta hesabla 152.1 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 2.4% (3.5 bənd), ötən ilin aprel ayı ilə müqayisədə isə 22.9% (28.4 bənd) **çoxdur.**
- **Taxıl Qiyməti İndeksi** aprel ayında orta hesabla 111.0 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.2% (1.3 bənd) çox, ötən ilin aprel ayı ilə müqayisədə isə 0.5% (0.5 bənd) **azdır**.
- **Bitki Yağlarının Qiymət İndeksi** aprel ayında orta hesabla 158.0 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 2.3% (3.7 bənd) azdır, ötən ilin aprel ayı ilə müqayisədə isə 20.7% (27.1 bənd) **çoxdur**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** aprel ayında orta hesabla 112.8 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 3.5% (4.1 bənd), ötən ilin aprel ayı ilə müqayisədə isə 10.9% (13.8 bənd) **azdır.**

**FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2014-2016-cı illər 100 götürülüb)**




**FAO-nun ərzaq qiymətləri indeksi, illik (2014-2016-cı illər 100 götürülüb)**




**Mənbə:** http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 12 May 2025-ci il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2025/2026-ci məhsul ili üzrə qlobal buğda istehsalının 2024/2025-cü ilə nəzərən 9 milyon ton artaraq 809 milyon ton olacağı proqnozlaşdırılır.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2023/2024 | 2024/2025 | 2025/2026 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 275 | 269 | 265 |
| | İstehsal | 792 | 800 | 809 |
| | **Cəmi təklif** | 1067 | 1069 | 1074 |
| **TİCARƏT** | İdxal / İxrac | 222 | 206 | 213 |
| **TƏLƏB** | Ərzaq və toxum | 639 | 650 | 653 |
| | Yem | 159 | 154 | 155 |
| | Cəmi istifadə | 798 | 804 | 808 |
| **İLİN SONUNA QALIQ** | | 269 | 265 | 266 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ*** | | **34%** | **33%** | **33%** |

**Mənbə:** https://www.uswheat.org/market-information/supply-and-demand/

- Məcmu təklifin həcm göstəricisinin 2024/2025-cü məhsul ili ilə müqayisədə 5 milyon ton artaraq 1074 milyon ton olacağı proqnozlaşdırılır.
- Qlobal buğda ehtiyatları həcminin 2024/2025-cü məhsul ili ilə də müqayisədə 2025/2026-ci məhsul ilində 0.4% artacağı və 266 milyon tona qalxacağı gözlənilir. Nəticədə dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 33% səviyyəsində olacaq.
- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcminin 3 milyon ton artaraq 66 milyon ton, istehsal həcminin isə 2024/2025-cü məhsul ili ilə müqayisədə 9 milyon ton çox (396 milyon ton) olacağı gözlənilir. Bununla da əsas ixracatçı ölkələr üzrə ümumi təklif səviyyəsi 12 milyon ton çox (462 milyon ton) olacaq.

- Dünya buğda ticarətinin 2025/2026-ci məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 3.4% artaraq 213 milyon ton olacağı proqnozlaşdırılır.
- Çində ilin əvvəlinə olan qalıq həcminin 2025/2026-cü məhsul ili ilə müqayisədə 8 milyon ton azalaraq 127 milyon ton olacağı gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2025/2026-ci məhsul ilində istehsal həcminin 2.4% azalaraq 135.5 milyon ton, ixracın isə dəyişməz qalaraq 72.1 milyon ton olacağı proqnozlaşdırılır.

**Qara dəniz ölkələri qrupu üzrə icmal**




**Qara dəniz ölkələri qrupu üzrə ixrac**




**Mənbə:** www.uswheat.org

**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

➢ **2025-ci ilin aprel ayında buğdanın qiyməti əvvəlki aya nisbətən 4% azalaraq 219 ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

## Rusiya buğdasının ixrac qiyməti

➢ **Rusiya buğdasının ixrac qiyməti aprel ayında əvvəlki aya nisbətən 0.8% artaraq 251 ABŞ dolları/ton təşkil etmişdir.**







**Mənbə:** https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international

## Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin aprel ayında Avropa İttifaqı arpasının qiyməti əvvəlki ayla müqayisədə 0.4% azalaraq 229 ABŞ dolları, Qara dəniz arpasının qiyməti isə 1.3% azalaraq 231 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/home*

## Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

- **2025-ci ilin aprel ayında düyünün qiyməti əvvəlki aya nisbətən 1.73% azalaraq 397 ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Qarğıdalının dünya bazarı qiymətində qeyri-sabitlik müşahidə olunur. Aprel ayında qiymət əvvəlki aya nisbətən 3.9% artaraq 215 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

- **Dünya üzrə pambıq balansına əsasən, 2025/26-cı məhsul ilində pambıq istehsalının 2024/25-ci məhsul ili ilə müqayisədə 3% azalaraq 25.6 milyon ton olacağı proqnozlaşdırılır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*), milyon ton**

| | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 | 2024/25 May | 2025/26 May |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 18.2 | 15.8 | 15.4 | 16.5 | 16.1 | 17.1 |
| **İstehsal** | 24.7 | 24.9 | 25.3 | 24.6 | 26.4 | 25.6 |
| **Təklif** | 42.9 | 40.7 | 40.8 | 41.1 | 42.4 | 42.7 |
| **Fabrik istehlakı** | 27.1 | 25.2 | 24.5 | 25.0 | 25.4 | 25.7 |
| ***İlin sonuna qalıq*** | 15.8 | 15.4 | 16.5 | 16.1 | 17.1 | 17.1 |
| ***Qalıq/İstehlak nisbəti*** | *58.4%* | *61.3%* | *67.4%* | *64.3%* | *67.2%* | *66.4%* |

**Cədvəl 2. Çinin pambıq balansı, milyon ton**

| | 2022/23 | 2023/24 | 2024/25 May | 2025/26 May |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.4 | 7.3 | 8.0 | 8.2 |
| **İstehsal** | 6.7 | 6.0 | 7.0 | 6.3 |
| **İdxal** | 1.4 | 3.3 | 1.3 | 1.5 |
| **Təklif** | 15.5 | 16.5 | 16.3 | 16.0 |
| **Fabrik istehlakı** | 8.2 | 8.5 | 8.1 | 7.9 |
| ***İlin sonuna qalıq*** | 7.3 | 8.0 | 8.2 | 8.1 |
| ***İstehlak*** | 8.2 | 8.5 | 8.1 | 8.0 |
| ***Qalıq/İstehlak nisbəti*** | *88.3%* | *94.2%* | *101.4%* | *101.1%* |

**Cədvəl 3. Çin istisna olmaqla dünya pambıq balansı, milyon ton**

| | 2022/23 | 2023/24 | 2024/25 May | 2025/26 May |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 8.0 | 9.3 | 8.1 | 8.9 |
| **İstehsal** | 18.6 | 18.6 | 19.4 | 19.3 |
| **Təklif** | 26.6 | 27.9 | 27.5 | 28.2 |
| **Fabrik istehlakı** | 16.3 | 16.5 | 17.3 | 17.8 |
| **Çinə ixrac** | 1.4 | 3.3 | 1.3 | 1.5 |
| ***İstehlak*** | 17.7 | 19.8 | 18.7 | 19.3 |
| ***İlin sonuna qalıq*** | 9.3 | 8.1 | 8.9 | 9.0 |
| ***Qalıq/İstehlak nisbəti*** | *52.5%* | *40.8%* | *47.6%* | *46.7%* |

**Mənbə**: *https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/*

## Pambığın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Aprel ayında pambığın 1 kiloqramının qiyməti ("A Index") əvvəlki aya nisbətən 1.2% artaraq 1.73 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

## Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

- **2025-ci ilin fevral ayında dünya bazarında xam ipəyin qiyməti əvvəlki aya nisbətən 0.9% azalaraq 64.2 min ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://businessanalytiq.com/procurementanalytics/index/raw-silk-price-index/

## Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin aprel ayında dünya bazarında quru baramanın qiyməti əvvəlki aya nisbətən 1.4% azalaraq tona 20.9 min ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://businessanalytiq.com/procurementanalytics/index/dried-cocoons-price-index/

## Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **Aprel ayında günəbaxan yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən 0.8% azalaraq 1223 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

➢ 2025-ci ilin aprel ayında zeytun yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən İtaliya bazarında 5.8%, İspaniya bazarında 0.7% artaraq müvafiq olaraq 10716 ABŞ dolları, 4443 ABŞ dolları, Yunanıstanda isə 2% enərək 4533 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

## Çayın dünya bazarı qiymətinə dair qısa icmal

- Aprel ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ayla müqayisədə 8.2% artaraq 2.91 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin aprel ayında şəkərin dünya bazarı qiyməti əvvəlki aya nisbətən 4.8% azalaraq 0.4 ABŞ dolları/kq səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ Aprel ayında soyanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən 1.5% artaraq 407 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Mal ətinin dünya bazar qiymətində qeyri-sabitlik müşahidə olunur. Aprel ayında ətin 1 kiloqramının qiyməti əvvəlki aya nisbətən 0.9% azalaraq 6.7 ABŞ dolları səviyyəsində düşmüşdür.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin aprel ayında Avropa bazarında qoyun ətinin 1 kiloqramının orta qiyməti əvvəlki aya nisbətən 7.5% artaraq 10.8 ABŞ dolları səviyyəsinə yüksəlmişdir.**







**Mənbə:** https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html

# Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ 2025-ci ilin aprel ayında donuz ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki aya nisbətən 13.5% artaraq 2.3 ABŞ dolları səviyyəsinə qalxmışdır.







**Mənbə:** [https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html](https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html)

# Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

- **2025-ci ilin aprel ayında quş ətinin 1 kiloqramının dünya bazar qiyməti əvvəlki ayla müqayisədə 5.6% artaraq 3.23 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html

# Südün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin mart ayında ABŞ bazarında süd xammalının 1 tonunun fermadan satış qiyməti əvvəlki ayla müqayisədə 6.9% azalaraq 484 ABŞ dolları, Yeni Zelandiya bazarında 0.6% artaraq 434 ABŞ dolları olmuşdur. Aprel ayında isə Avropa İttifaqı bazarında süd xammalının 1 tonunun fermadan satış qiyməti 4.3% artaraq 599 ABŞ dolları olmuşdur.**







**Mənbə**: https://www.clal.it/en/index.php

➢ **Quru südün 1 tonunun qiyməti 2025-ci ilin aprel ayında əvvəlki ayla müqayisədə ABŞ-da 0.8% azalaraq 4497 ABŞ dolları, Avropa İttifaqında isə 1.9% artaraq 4837 ABŞ dolları olmuşdur.**







**Mənbə:** https://www.clal.it/en/index.php

# Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2025-ci ilin aprel ayında əvvəlki aya nisbətən fosfor gübrəsinin qiyməti 3.5%, kalium gübrəsinin qiyməti 4.8% artmaqla müvafiq olaraq tona 496 ABŞ dolları və 352 ABŞ dolları, azot gübrəsinin qiyməti isə 2% azalaraq tona 387 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets

Əlaqə:
(+994 12) 599-08-88
https://atm.gov.az/az/
https://agroeconomics.az/
info@atm.gov.az
Süleyman Vəzirov küçəsi, 91
AZ 1025 Bakı, Azərbaycan

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ